**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**NURLAN NİZAMİ OĞLU ABBASOV**

# "KİTABİ-DƏDƏ QORQUD" EPOSU AZƏRBAYCANIN ERKƏN ORTA ƏSRLƏR TARİXİNİ ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏ KİMİ

**İxtisas: 55 09.01. – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2013**

Dissertasiya Bakı Dövlət Universitetinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix üzrə elmlər doktoru prof.A.C.İsgəndərov

Rəsmi opponentlər: akademik N.M.Vəlixanlı

tarix üzrə fəlsə doktoru X.S.Məmmədov

Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası

Müdafiə "_19__" _10__2013-cü il tarixdə saat ___ -da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən B/D.02.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxansında tanış olmaq olar.

Avtoreferat "______" _________________2013-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə elmlər doktoru prof.R.C.Süleymanov

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dünya təcrübəsindən məlumdur ki, hər bir ölkənin tarixini öyrənmək üçün müvafiq mənbələr mühüm əhəmiyyət kəsb edir. Bu mənada "Kitabi-Dədə Qorqud"" eposu oğuz türklərinin, o cümlədən Azərbaycan xalqının tarixini öyrənmək üçün misilsiz mənbədir. Bu qəhrəmanlıq dastanı Azərbaycanın əsl tarixidir. "Kitabi-Dədə Qorqud"" boylarındakı çox qiymətli məlumatlar, real tarixi faktlar, bu istiqamətdə aparılan müqayisəli elmi araşdırmalar sübut edir ki, oğuz türkləri dünyanın ən qədim, həm də çox zəngin maddi və mənəvi mədəniyyət yaratmış xalqlarındandır.

Problemin aktuallığını şərtləndirən əsas amillərdən biri oğuzların, xüsusilə Azərbaycan türklərinin qədim və erkən orta əsrlər tarixinin araşdırılmasında "Kitabi-Dədə Qorqud"" eposunun tarixi mənbə kimi əvəzsiz rola malik olmasıdır. "Kitabi-Dədə Qorqud"" tarixi mənbələrimizin ən mötəbəridir desək, yanılmarıq. Dədə Qorqud söyləmələri nəsildən-nəsilə, eldən-elə, dildən-dilə, bu günkü nəsillərə əmanət edilmiş tarixdir. Bu tarixin baş qəhrəmanı isə oğuz türkünün, o cümlədən Azərbaycan xalqının özüdür.

Ümummilli lider Heydər Əliyev "Kitabi-Dədə Qorqud" eposunun Azərbaycan türklərinin, o cümlədən, bütövlükdə türk xalqlarının tarixi üçün çox böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq 1997-ci il aprelin 20-də eposun beynəlxalq səviyyədə 1300 illik yubileyinin keçirilməsi haqqında fərman imzaladı. Fərmanda deyilirdi: "Azərbaycan xalqının mühüm tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının yaranmasından 1300 il keçir. Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanının dünya mədəniyyəti və ədəbiyyatı tarixində xüsusi yer tutduğunu, onun yubleyinin Azərbaycan xalqının, bütün türk xalqlarının qədim və zəngin mədəniyyətinin təbliğinə xidmət edən beynəlxalq əhəmiyyətli hadisədir."[1].

---

[1] "Azərbaycan qəzeti", Bakı, 1997.

Azərbaycan xalqının tarixinin, etnik yaddaşının güzgüsü olan “Kitabi Dədə Qorqud” nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi kimi də böyük mədəni-estetik əhəmiyyət kəsb edir. Məhz elə bu səbəbdəndir ki, ozan-aşıq sənətimiz, yazılı ədəbiyyatımız onun təsirindən kənarda qala bilməmişdir.

“Kitabi-Dədə Qorqud” eposunun elm aləmində öyrənilməsinə 1815-ci ildə Almaniyada başlanılmış, sonrakı dövrdə müxtəlif ölkələrdə Almaniya, Rusiya, Türkiyə, İtaliya, ABŞ-da, İngiltərə və b. Dövlətlərdə dastanın tədqiqi genişlənmişdir .

Sovetlər dönəmində “Kitabi-Dədə Qorqud”" eposu amansız cəza-repressiya məngənəsindən yaxa qurtara bilmədi. Düzdür, faşizmə qarşı mübarizəyə qalxan xalqda qəhrəmanlıq ruhunu canlandırmaq məqsədilə sovet ideoloji maşını “Kitabi Dədə Qorqud"” və “Koroğlu"” kimi dastanlardan istifadə etməyə cəhd göstərirdi. Müharibə başa çatandan və dinc həyat bərqərar olduqdan sonra gənc nəslin “Kitabi-Dədə Qorqud” ruhunda tərbiyə edilməsi ideoloqlar tərəfindən yasaq olundu. Ədəbiyyat və incəsənətə qarşı yönəldilmiş məşhur “Jdanov qərarları”nın ab-havasına uyğun olaraq eposa qarşı hücumlar başlandı. Belə ki, 1949-cu ildə akademik H. Hüseynovun “XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən” əsəri tənqid atəşinə tutularaq, Azərbaycan xalqının tarixinə və elminə zidd bir əsər kimi ifşa olundu. "Kitabi-Dədə Qorqud" eposu da bu təqibdən yan keçə bilmədi. Eposun ümumən xalq eposu olmadığı bildirildi və “bu eposu yayanları amansızlıqla ifşa etmək və onlara divan tutmaq” şüarları səsləndi. Görkəmli Azərbaycan alimləri H.Araslı və M.Təhmasib tərəfindən akad. V.Bartoldun ruscaya çevirdiyi "Kitabi-Dədə Qorqud" kitabının 1950-ci ildə Bakıda çap edilməsi rejimin sərt reaksiyasına məruz qaldı. Sovetlər Birliyinin siyasi ab-havasında baş verən ciddi dəyişikliklərdən sonra “Kitabi-Dədə Qorqud"” eposu bəraət qazana bildi, eposun tədqiqi sahəsində yeni-yeni elmi nailiyyətlər qazanıldı.

“Əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlardan yaranmış müstəqil dövlətimiz”[1] Azərbaycan tarixinin növbəti,

[1]Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 mart tarixli fərmanı. "Azərbaycan" qəzeti, 23 mart 2001.

keyfiyyətcə yeni bir mərhələsinin başlanğıcını qoymaqla, yeni cəmiyyət quruculuğu ilə bağlı çoxsaylı siyasi, iqtisadi, sosial və mədəni-mənəvi həyat məsələlərinin həll edilməsini həm vacib zərurətə çevirmiş[1], həm də özünün mövcudluğu ilə bunun üçün ilkin-müqəddəm hüquqi əsaslar vermiş və zəruri şərait yaratmışdır.

Problemin aktuallığını şərtləndirən digər bir mühüm amil "Kitabi-Dədə Qorqud"" eposunun tarixi mənbələrimizin ən mötəbəri kimi tədqiq edilməsi zərurətidir. Qeyd etmək lazımdır ki, türkoloqların, o cümlədən Azərbaycan alimlərinin böyük əksəriyyəti uzun müddət "Kitabi-Dədə Qorqud""u başlıca olaraq, xalq ədəbiyyatı nümunəsi kimi araşdırmış və tədqiqatları ancaq bu istiqamətdə aparılmışlar. Bəzi tədqiqatlar nəzərə alınmazsa, hal-hazırda da axtarışlar bu istiqamətdə gedir, birtərəfli aparılır. Beləliklə, çox təəssüf ki, bu qiymətli abidə bir tarixi mənbə kimi Azərbaycanın, ümumiyyətlə türkün tarix qaynağı kimi hələ dərindən və sistemli şəkildə araşdırılmayıb.

Daha böyük təəssüf doğuran hal isə bundan ibarətdir ki, "Kitabi-Dədə Qorqud""a üz tutan tədqiqatçıların, o cümlədən Azərbaycan alimlərinin əksəriyyəti bu diyara oğuz türklərinin gəlişini, başlıca olaraq, səlcuq türkləri ilə əlaqələndirirlər. Bu gün isə inkar edilməyəcək bir həqiqət bundan ibarətdir ki, dünya xalqlarının ən qədim mənəvi abidələri içərisində xüsusi yeri olan "Kitabi-Dədə Qorqud""da cərəyan edən real tarixi hadisələr məhz Azərbaycanda – tarixi Azərbaycan torpaqlarında baş vermişdir. Odur ki, dastan Azərbaycan xalqının etnogenezi problemini öyrənmək baxımından əvəzolunmaz mənbədir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Problem bilavasitə Azərbaycanın erkən orta əsrlər tarixini əhatə edir. Yəni islamın ilk yüzilliyindən (VII əsrdə) başlamış, dastan mətnindəki proseslərə uyğun olaraq XIII əsrə qədərki Azərbaycanın tarixi-ictimai şəraitinin eposda əks olunmasının tədqiqinə həsr olunmuşdur.

**Mövzunun öyrənilmə səviyyəsi.** Tədqiq olunan problem istər vətən, istərsə də xarici tarixşünaslıqda araşdırılmış, ayrı-ayrı dövrlərdə xeyli sayda tədqiqatlar ərsəyə gəlmişdir. Ancaq Azərbaycanda tədqiqatçıların böyük əksəriyyəti XX əsrin 20-ci illərindən başlayaraq "Kitabi-Dədə

[1] Azərbaycan Respublikasının Konstitusiyası. B., 1997.

Qorqud"u" başlıca olaraq, xalq ədəbiyyatı nümunəsi kimi araşdırmışlar. Qorqudşünaslar bu qiymətli abidəyə həssaslıqla yanaşmış, doğma tariximizin bu ana qaynağının zənginliyini əvəzsiz bir məhəbbətlə incələmişlər.

"Kitabi-Dədə Qorqud""un Azərbaycanda 1920-ci illərin axırlarında A.Musaxanlı, İ.Hikmət[1], Ə.Abid[2] və başqa görkəmli alimlərin səyi ilə başlanan tədqiqinin günümüzə qədər davam edən tarixi öz keşməkeşliyi ilə seçilir. Lakin bu tarixi mənbənin fədakar araşdırıcılarının Sövetlər Birliyində xalq düşməni adlandırılmasına, sonradan eposa xalqa zidd, zərərli bir abidə kimi qadağa qoyulmasına və digər məhrumiyyətlərə baxmayaraq, 1930-1940-cı illərdə H.Araslı, M.Təhmasib, Ə.Dəmirçizadə və başqa alimlərin təmsil etdiyi Azərbaycan qorqudşünaslığı sələflərinin başladığı işi ləyaqətlə davam etdirmişlər.

H.Araslı eposla bağlı araşdırmalarına 1938-ci ildə "Kitabi-Dədə Qorqud"" adlı məqalə ilə başlamışdır.[3] Alimin həmin ildən başlayaraq ömrünün sonlarına qədər eposun tədqiqi sahəsində araşdırmaları müvəffəqiyyətlə davam etmişdir. Hələ ilk məqaləsində "Kitabi-Dədə Qorqud""u dünya xalqlarının ən məşhur eposları ilə müqayisə ediləcək möhtəşəm sənət nümunəsi kimi təqdim edən müəllif, onun dil, coğrafi məkan baxımından Azərbaycandan ayrılmazlığı, Dədə Qorqudun şəxsiyyəti, epos qəhrəmanlarının səciyyəsi və başqa bu kimi məsələlərdən bəhs edir.

H.Araslının "Kitabi-Dədə Qorqud""la bağlı elmi fəaliyyətinin mühüm hissəsini abidənin nəşri sahəsində gördüyü işlər təşkil edir. Alim ilk dəfə eposu tam şəkildə latın əlifbası ilə nəşr edərək geniş oxucu kütləsinə çatdırmışdır.[4]

Alimin eposun o zamankı İttifaq miqyasında daha geniş tanınması üçün gördüyü faydalı işlərdən biri də "Kitabi-Dədə Qorqud""un görkəmli rus şərqşünası V.Bartoldun 1922-ci ildə çapa hazırladığı rus

---

[1] Hikmət İ. Azərbaycan ədəbiyyatı tarixi, I cild, Bakı: Azərnəşr, 1928, s. 78-79.
[2] Əmin Abid. Əşirət dövründəki ədəbiyyatımıza aid vəsiqələr. Azərbaycanı öyrənmə yolu məcmuəsi. Bakı, 1930, № 3, s. 48-52.
[3] Araslı H. Kitabi-Dədə Qorqud. "Revolyusiya və kultura", 1938, № 3, səh. 61-69.
[4] Kitabi-Dədə Qorqud. Bakı, Azərnəşr, 1939.

tərcüməsini M.Təhmasiblə birlikdə müfəssəl qeyd və izahlarla çap etdirməsi idi.[1]

Keçmiş Sovet dövləti ilə Türkiyə münasibətlərinin çox gərgin olduğu və türk xalqlarını birləşdirən qədim mədəni abidələrin və ümumtürk mədəniyyətinin bütövlükdə öyrənilməsi hər vasitə ilə məhdudlaşdırıldığı, hətta açıq-aydın yasaq edildiyi illərdə meydana işıq üzü görən bu nəşrlər doğma abidəmizin öyrənilməsi və geniş təbliği sahəsində göstərilən cəsarətli təşəbbüs idi.

1952-ci ildə abidənin yeni Vatikan nüsxəsinin tapılması dastanların tədqiqi və çapı üçün geniş imkanlar yaratsa da, “Kitabi-Dədə Qorqud”"un Azərbaycanda iki əlyazma nüsxəsi əsasında daha mükəmməl nəşri 1962-ci ildə mümkün oldu.

1957-ci ildə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun “Kitabi-Dədə Qorqud”"a həsr olunmuş elmi sessiyası bu abidənin tədqiqinə geniş şərait yaratdı. Sessiya ərəfəsində H.Araslının, M.Arifin, Ə.Dəmirçizadənin və M.Təhmasibin imzası ilə nəşr edilmiş "Dədə Qorqud dastanları" adlı qiymətli məqalə[2] bu abidənin öyrənilməsinə düzgün istiqamət verdi.

Ə.Sultanlının 1958-1959-cu illərdə nəşr etdirdiyi "Dədə Qorqud dastanı haqqında qeydlər”" adlı məqalələri[3] xüsusilə qeyd edilməlidir.

Vaqif Vəliyevin ayrılıqda[4] və İmran Babayevlə Paşa Əfəndiyevin birlikdə yazdıqları[5] eyni adlı kitablarda eposun tədqiq və nəşr tarixindən nisbətən ətraflı bəhs olunur.

M.Seyidovun 60-cı illərdə Azərbaycan xalqının mənşəyinə, Oğuz və Azərbaycan mifologiyasına, “Dədə Qorqud” boylarının mənşəyinə dair çap etdirdiyi məqalələr xüsusilə diqqəti cəlb edir.[6]

---

[1] Деде Коркут. пер. В. В. Бартольда. Подготовил к печати Г. Арaслы, М. Тахмасиб. Баку, 1950.

[2] Araslı H. Arif M., Dəmirçizadə Ə., Təhmasib M. H. Dədə Qorqud dastanları. "Kommunist" qəzeti, Bakı, 1957, № 26.

[3] Sultanlı Ə. Dədə Qorqud dastanı haqqında qeydlər. ADU-nun Elmi Əsərləri. Bakı, 1958, № 1, s. 17-26, 1959, № 1, s. 3-19.

[4] Vəliyev V. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., 1970.

[5] Babayev İ., Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., 1970.

[6] Seyidov M. Dədə Qorqud boylarının mənşəyinə dair. Azərbaycan jurnalı, 1968, № 6.

Ş.Cəmşidov[1] və P.Xəlilovun[2] ayrı-ayrı tədqiqatlarında "Kitabi-Dədə Qorqud" eposunun nəşr və tədqiq tarixi, eposda təsvir edilən Azərbaycan Oğuz elləri, boyların məzmun və ideyası öyrənilmişdir.

Vətən tarixinin bir çox problemləri ilə bağlı sanballı tədqiqatlar aparan S. Əliyarlının elmi fəaliyyətində və eləcə də Bakı Dövlət Universitetinin Tarix fakültəsinin təcrübəsində əsl dönüş klassik irsimizlə –"Kitabi-Dədə Qorqud"la bağlıdır. S. Əliyarlı ilk dəfə olaraq eposun tarixi mənbə kimi tədqiqi problemini qaldıraraq, Vətən tarixinin bu perspektivlərini müəyyənləşdirmişdir.[3] Müəllifin araşdırmaları nəticəsində eposdakı anaxaqanlıq (matriarxat) haqqında məlumatların Homer "Odisseya"sına və Esxil "Oresteyası""na bərabər olduğu müəyyən edilmişdir. Epos üzrə S. Əliyarlının araşdırmalarını dünya şöhrətli alman alimi-qorqudşünas, tariximiz qarşısında böyük xidməti olan şəxs–Əhməd Şmide çox yüksək dəyərləndirərək yazmışdı: "Müəllimim! "Kitabi-Dədə Qorqud""un etnoqrafiyası və tarixini Sizin qədər bilən yoxdur. S. Əliyarlı Azərbaycan tarixində qorqudşünaslığın əsasını qoymuşdur"."[4]

Görkəmli tarixçi Y.Mahmudov başqa türk soyları kimi, oğuz türklərinin də hələ səlcuq axınlarından çox-çox əvvəl Azərbaycanda və Şərqi Anadoluda məskunlaşması barədə öz fikirlərini ötən əsrin 70-ci illərindən başlayaraq elmi ictimaiyyətə çatdırır. Bu baxımdan müəllifin ayrı-ayrı vaxtlarda kütləvi informasiya vasitələrində işıq üzü görmüş məqalələri[5] deyilənləri təsdiqləyir. Müəllif yazır ki, müxtəlif türk etnoslarının qaynayıb-qarışaraq ayrıca və vahid xalqa çevrilməsinin ilk faktlarından biri, yəni Azərbaycan xalqının təşəkkülü prosesi də məhz bu regionda–Qafqazda baş vermişdir. Nəticədə böyük bir regionda–tarixi Azərbaycan ərazisində (habelə Şərqi Anadolu, Dəclə və Fəratın

---

[1] Cəmşidov Ş. Kitabi-Dədə Qorqud. B., 1977.

[2] Xəlilov P.Kitabi-Dədə Qorqud-İntibah abidəsi.B., 1993.

[3] Bünyadov Z., Əliyarlı S. Kağan titulu haqqında //Az. SSR EA-nın Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası. 1984 №3. səh.121-124.

[4] Muradəliyeva E. Müəllim haqqında söz. Azərbaycan tarixinin çağdaş problemləri. Bakı-2000, s. 3-20.

[5] Mahmudov Y. Türkün çağlayan tarix bulağı. Zaman, 4-5 aprel, 2000; Oğuzun mədəniyyət və mənəviyyat dünyası. Respublika, 8 aprel 2000; Dədə Qorqud boylarının vətəni qədim Azərbaycan elləridir. Kaspi, 8-11 aprel, 2000.

yuxarılarında), ilk dəfə olaraq, çoxsaylı və böyük türk toplumlarının hamısının bir-birini asanlıqla başa düşdüyü ümumtürk danışıq dili formalaşmış, türkün min illər boyunca yaratdığı və yaşatdığı ayrı-ayrı xalq ədəbiyyatının nümunələrinin- "Kitabi-Dədə Qorqud"" boylarının vahid dastan halında təşəkkülü prosesi də elə bu ərazidə başa çatmışdır. Müəllifə görə, bu gün dünyanın, o cümlədən Azərbaycanın yağı düşmənlərinin inkar edə bilməyəcəyi daha bir həqiqət bundan ibarətdir ki, dünya xalqlarının ən qədim mənəvi abidələri içərisində xüsusi yeri olan "Kitabi-Dədə Qorqud"da cərəyan edən real tarixi hadisələr məhz Azərbaycanda-tarixi Azərbaycan torpaqlarında baş vermişdir. Bir sözlə, "Kitabi-Dədə Qorqud"" dünyasında ucalan əzəmətli ümumtürk həyat ağacının ana kökü də, şah budağı da Azərbaycandadır. Müəllif fikirlərini əsaslandırmaq üçün son illərədək mütəxəssislər tərəfindən hələ lazımınca araşdırılmamış oğuznamələrdən birindəki–Əbu Bəkr ət-Tehraninin "Kitabi Diyarbəkriyyə" sindəki bəzi faktlara diqqəti cəlb edir. Əsərdəki konkret faktlara müraciət edən müəllif yazır: "Əbu Bəkr ət-Tehrani Uzun Həsənin böyük babası-Ağqoyunlu dövlətinin banisi olan Qara Yuluk Osman bəyin nəsil şəcərəsini araşdıraraq, onu 54-cü babada Oğuz xaqana dirəyir. Sonra isə Oğuz xaqanın başçılıq etdiyi dövlətin əhatə etdiyi əraziləri sadalayır və nəhayət onun Göycə dənizi tərəflərdə vəfat etdiyini yazır"."[1]

"Kitabi-Dədə Qorqud"" eposunun tədqiqi sahəsində həm Qərb tarixçiləri V. Rubenin[2], həm də rus şərqşünasları–V.Bartold[3], Y.Yakubovski[4], V. Jirmunskinin mühüm xidmətləri olmuşdur.[5]

V.Jirmunski "Kitabi-Dədə Qorqud"u ümumtürk eposu səpkisində tədqiq etmişdir. O, Mərkəzi Asiyadan başlamış Kiçik Asiyaya,

---

[1] Mahmudov Y. Dədə Qorqud boylarının vətəni qədim Azərbaycan elləridir. Kaspi, 8-11 aprel, 2000.

[2] Walter Ruben. Ozean der marchenstrome teil I. Die 25 Erzahlungen des Damons. Mit Einem Anhang uber die 12 Erzahlungen des Dede Korkut. Helsinki, 1944.

[3] Бартолд В. В. Турецкий эпос и Кавказ. Сб. Язык и литература. Л-1930.

[4] Якубовский А. Ю. Китаби Коркуд и его значение для изучения туркменского общества в эпоху раннего средневековья. Журнал Совет Эдебияты. Ашхабад, 1944, № 6, стр. 93-101.

[5] Жирмунский В. М. Следы огузов в Низовях Сырдарьи. Тюркологический сборник. т.1, М-Л., 1952, стр. 93-102; Китаби Коркуд и Огузская эпическая традиция. СВ, 1958, № 4, стр. 90-101.

Anadoluya qədər bütün türk xalqlarının ədəbi ənənələrini “Dədə Qorqud"” boyları motivləri ilə geniş ölçüdə müqayisə etmişdir. Onun tədqiqatının yaxşı cəhəti bu eposu bir növ beynəlxalq abidələr səviyyəsinə qaldırmasındadır. Lakin, bu tədqiqatda da birtətəflilik müşahidə olunur. O, bu geniş tədqiqatında özbək, qazax, türk, türkmən, hətta gürcü və erməni şifahi xalq ədəbiyyatını nəzərdən keçirib, Dədə Qorqud” boyları ilə əlaqə yaradır, paralellər və ümumi motivlər tapmağa çalışır, ancaq bu abidənin əsl sahibi olan Azərbaycan xalqının ədəbi, mədəni, tarixi irsindən, demək olar ki, söhbət açmır.

Qeyd etmək lazımdır ki, hələ XIX əsrin ikinci yarısından etibarən “Kitabi-Dədə Qorqud”" rus şərqşünaslarının diqqətini cəlb etmişdir. 1859-cu ildə V.V.Velyaminov-Zernov[1], 1865-ci ildə L.A. Meyer[2], 1896-cı və 1900-cü ildə A.A.Divayev[3] Orenburq əyalətində yarımxaraba halında mövcud olan “Xorxut ata qəbri”" və xalq arasında onun haqqında söylənilən rəvayətlər barəsində məlumatlar dərc edirlər. Böyük rus şərqşünası akademik V.V.Bartold hələ universitet tələbəsi olarkən “Kitabi-Dədə Qorqud"” üzərində geniş tədqiqat aparmağa başlayır. O, “Dədə-Qorqud”"un Drezden nüsxəsinin surətini köçürmüş, 4 boyunu ruscaya tərcüməsi ilə birlikdə çap etdirmişdir.[4]

V.V.Bartoldla eyni vaxtda Türkmənistanda yazıb yaradan rus alimlərindən A.Q.Tumanski[5] və K.A.İnostransevin[6] də bilavasitə “Kitabi-Dədə Qorqud" la əlaqədar məqalələri nəşr edilmişdir.

XX əsrin əvvəllərindən başlayaraq “Kitabi-Dədə Qorqud”" Türkiyədə tədqiq və nəşr olunmağa başlayır. 1916-cı ildə Kilisli müəllim Rüfət Drezden nüsxəsini Berlin Kral kitabxanasındakı surətinə əsasən İstanbulda ilk dəfə bütövlükdə nəşr etdirir. Bu hadisədən 22 il sonra 1938-ci ildə Orxan Şaiq Kökyay Drezden nüsxəsinin özünü o vaxta

---

[1] Вельяминов В. В-Зернов. Памятник с арабско-татарской надписи в Башкирин. СПб., 1859.

[2] Мейер Л. А. Материалы для географии и статистики России. Киргизкая степь Оренбургского ведомости. СПб., 1865.

[3] Диваев А. А. Несколько слов о могиле святого Хорхут ата. ЗВО, т. 10, 1896.

[4] Бартольд В. В. Турецкий эпос и Кавказ. Книга моего Деда Коркута. М., 1962.

[5] Туманский А. Г. По поводу Китаби Коркуд. ЗВО, Т. IX, СПб, 1890

[6] Иностранцев К. А. Коркуд в истории и легенде. ЗВО, Т. XX, СПб, 1912.

qədər təsadüf etdiyi bütün tədqiqat əsərlərinin xülasəsindən ibarət böyük bir müqəddimə ilə yeni türk əlifbasında çap etdirmişdir.[1]

Eposun tədqiqi sahəsində Türkiyə Cümhuriyyətində növbəti addım Məhərrəm Ergin tərəfindən atılmışdır. Müəllif Drezden və Vatikan nüsxələrinin fotofaksimilesini 1963-cü ildə nəşr etdirmişdir. Qeyd etmək lazımdır ki, ən çox tədqiqat işi aparılan Türkiyə Cümhuriyyətində “Kitabi-Dədə Qorqud”" ya bütünlüklə türk-osmanlı ədəbiyyatı nümunəsi[2], ya Azərbaycan ərazisində baş verən hadisələrin inikası kimi götürülür[3], bəzi tədqiqatçılar isə Dədə Qorqud dastanlarını Osmanlı torpağı ilə bağlamağa çalışırlar. Bu, çox zaman yer adlarının təhrifi yolu ilə edilir. Məsələn, boylarda “xalq”", “camaat"” mənasında olan “ümmət"” sözü Amid şəhərinin adı kimi götürülür və bununla da əslində “ümmət soyunun aslanı”, yəni xalq kütləsinin dayağı, tərəfdarı, qəhrəmanı adlanan Qazan xan və Bayandur xan “Amid soyunun aslanı"”[4] kimi təqdim olunur. Halbuki, “Amid"” yaxud “Həmid"” qalası Dədə Qorqud qəhrəmanlarının dağıtdığı düşmən qalalarından biridir. Deməli, Oğuz qəhrəmanları olan Qazan xan, yaxud Bayandur xan heç də özünə doğma olmayan bir yerin aslanı kimi mədh edilə bilməzdi.

Eposun tədqiq və təbliği sahəsində türkmən alimi B.A.Karrıyevin xeyli xidməti vardır. O, Dədə Qorqud boyları haqqında məqalələr yazmış və onun əsas boylarını türkmən mətbuatında nəşr etdirmişdir. Lakin, təəssüflə qeyd etmək lazımdır ki, onun bu sahədəki tədqiqatında ciddi birtərəflilik nəzərə çarpır. B.A.Karrıyev müxtəlif vaxtlarda yazdığı bu məqalələrdə “Kitabi-Dədə Qorqud” u bütünlükdə türkmən eposu elan edir və hətta Drezden nüsxəsini guya türkməncə yazılmış ilk orijinaldan azərbaycanlaşdırılaraq köçürülmüş nüsxə kimi qələmə verir.[5]

Beləliklə, eposla bağlı aparılmış tədqiqatların qısa xülasəsindən aydın olur ki, “Kitabi-Dədə Qorqud”" eposu Azərbaycanın erkən orta əsrlər tarixini öyrənmək üçün mənbə kimi”" mövzusu indiyə qədər istər vətən, istərsə də xarici ölkə tarixşünaslığında ayrıca tədqiqat obyekti ol-

---

[1] Orhan Şaik. Dede Korkut. İstanbul, 1938.
[2] Faruk Sumer. Dede Korkut kitabına dair bezi mülahizeler. İstanbul, 1952.
[3] Kirzioğlu F. Dede Korkut oguznameleri. İstanbul, 1952.
[4] Ergin M. Dede Korkut kitabı. Ankara, 1958, s. 95-144.
[5] Karrıyev B. A. Korkut Ata kitabı. SSRİ EA, TF Xəbərləri, 1946, № 3-4, s. 28-33.

mamışdır. Hərçənd, əvvəldə də qeyd etdiyimiz kimi, eposla bağlı çoxlu sayda tədqiqatlar aparılmışdır. Lakin, ilk dəfə olaraq "Kitabi-Dədə Qorqud"" eposu Azərbaycanın erkən orta əsrlər tarixini öyrənmək üçün mənbə kimi araşdırılır ki, bu da vətən tarixində mövcud boşluğun aradan qaldırılmasında əhəmiyyətli rol oynaya bilər.

**Dissertasiyanın mənbə bazası.** Tədqiqatın mənbə bazasını "Kitabi-Dədə Qorqud"" eposu təşkil edir.

Tədqiqata həmçinin rus şərqşünaslarının "Kitabi-Dədə Qorqud"" eposu ilə bağlı araşdırmaları da cəlb olunmuşdur. Bu tədqiqatlarda türk xalqlarının ədəbi ənənələri Dədə Qorqud" boyları motivləri ilə geniş ölçüdə müqayisə edilmişdir. Eyni zamanda bu tədqiqatların əhəmiyyətli cəhəti eposun bir növ beynəlxalq abidələr səviyyəsinə qaldırmasındadır.

Sovet dönəmində çap edilmiş bir sıra əsərləri də dissertasiyanın mənbə bazasına daxil etmək olar. Məhz bu dövrdə H.Araslının, M.Təhmasibin, Ş.Cəmşidovun apardığı araşdırmalar Azərbaycan ədəbi, mədəni və ən əsası tarixi irsinin öyrənilməsində mühüm mərhələ olmuşdur.

Beləliklə, istifadə olunmuş mənbələr dissertasiya mövzusunun müxtəlif aspektlərini əks etdirərək bir-birini tamamlayır. Bu mənbələrin kompleks şəkildə və tənqidi təhlil əsasında tədqiqata cəlb edilməsi "Kitabi-Dədə Qorqud"" eposu əsasında Azərbaycanın erkən orta əsrlər tarixinin obyektiv tədqiqinə kömək etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın başlıca məqsədi "Kitabi-Dədə Qorqud"" eposunun tarixi mənbə kimi araşdırılması, təhlil edilməsi və onun Azərbaycanın erkən orta əsrlər tarixini öyrənmək üçün mənbə kimi əhəmiyyətinin müəyyən edilməsidir. "Kitabi-Dədə Qorqud" eposu əsasında oğuz türklərinin tarixi coğrafiyası, ictimai-siyasi quruluşu, erkən orta əsr Azərbaycanın təsərrüfat həyatı, o cümlədən Azərbaycan türklərinin xarici düşmənlərə qarşı mübarizə tarixinin öyrənilməsi tədqiqatın əsas məqsədini təşkil edir.

**Dissertasiya işinin metodoloji əsasları.** Dissertasiyanın metodoloji əsasını obyektivlik və tarixilik prinsipləri, bütün mənbə və məlumatların kompleks şəkildə və tənqidi təhlil əsasında müqayisəli şəkildə araşdırılmasına söykənən obyektiv tarixi tədqiqat metodu təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya Azərbaycanın erkən orta əsrlər tarixini "Kitabi-Dədə Qorqud" eposu əsasında öyrənən

ilk tədqiqat işidir. Dissertasiyada təxminən "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı XIX əsrdən etibarən yazılmış əsərlər də diqqətlə öyrənilərək təhlil edilmiş və aşağıdakı nəticələr əldə edilmişdir:

- Oğuzların, xüsusilə Azərbaycan türklərinin qədim və erkən orta əsrlər tarixini araşdırmaq baxımından əvəzsiz mənbə olan "Kitabi-Dədə Qorqud"da cərəyan edən real tarixi hadisələrin məhz Azərbaycanda-tarixi Azərbaycan torpaqlarında baş verdiyi sübut olunmuşdur;
- "Kitabi-Dədə Qorqud"" eposu xalqımızın zəngin oturaq mədəniyyətə malik olduğunu, bu diyarda əkinçilik, toxuculuq, ipəkçilik və başqa təsərrüfat sahələrinin inkişaf etdiyini sübut edir;
- "Kitabi-Dədə Qorqud"" eposu əsasında oğuzlarda ciddi hərbi intizamın olduğu, vətənin müdafiəsi ilə bağlı məsələlərə "xanlar xanı" Bayandur xanın çağırdığı hərbi məclisdə baxıldığı təhlil edilmişdir;
- "Kitabi-Dədə Qorqud"" eposunda iştirak edən qəhrəmanların ən çox sıx yaşadıqları ərazi Mil-Muğan-Kür-Araz qovşağı sahələrindəki qışlaqlardan, Dərbənd, Altuntaxt, Aladağ ərazisindəki yaylaqlardan və eyni zamanda bütün Cənubi Azərbaycan ərazisindən ibarət olduğu sübut edilmişdir;
- Ən nəhayət, "Kitabi-Dədə Qorqud"" eposunun məlumatları əsasında oğuz igidlərinin Azərbaycana hücum edən erməni və gürcü feodallarına, onların havadarları olan Bizansa, həmçinin gürcü hakimləri ilə ittifaqa girən qıpçaq türklərinə qarşı mübarizəsi təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işində toplanmış çoxsaylı mənbələr, elmi ədəbiyyat, dövri mətbuat materialları, əldə edilmiş elmi nəticələr və irəli sürülmüş təkliflər problemə yeni yanaşma prizmasından böyük elmi maraq kəsb edir. Dissertant problemin bütün tərəflərinin araşdırıldığını iddia etmir. Təqdim olunan tədqiqat Azərbaycanın erkən orta əsrlər dövrü ilə bağlı ümumiləşdirilmiş əsərlərin yazılmasında, dərs vəsaitlərinin tərtib olunmasında, müzakirələrin və xüsusi kursların hazırlanmasında, tələbələrin kurs və buraxılış, magistrantların dissertasiya işlərinin yazılmasında istifadə oluna bilər.

Dissertant əsər üzərində işlərkən təkcə problemin öyrənilməsi və faktik materialların toplanması ilə kifayətlənməmiş, eyni zamanda həmin faktları hərtərəfli və dərindən təhlil etməyə, onların arasındakı əlaqələri və ziddiyyətləri aşkara çıxarmağa çalışmışdır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu Bakı Dövlət Universiteti Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika"" kafedrasında, Tarix fakültəsinin Elmi Şurasında və AMEA Humanitar və İctimai Elmlər üzrə Problem Şurasında təsdiq olunmuşdur. Dissertasiya işinin əsas məzmunu müəllifin Bakı Dövlət Universitetinin elmi konfranslarında etdiyi məruzələrdə və çap edilmiş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi qarşıya qoyulan məsələləri ardıcıl şəkildə araşdırmaq məqsədilə məntiqi quruluşda "Giriş", üç fəsil, altı paraqraf və "Nəticə" hissələrinə bölünmüşdür. Ümumi quruluş istifadə olunmuş geniş ədəbiyyat siyahısını əhatə edən biblioqrafik bölməsi ilə tamamlanmışdır.

## II DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə işin ümumi səciyyəsi, mövzunun aktuallığı, problemin xronoloji çərçivəsi, tədqiqatın məqsəd və vəzifələri, problemin öyrənilmə səviyyəsi, dissertasiyanın mənbə bazası, tədqiqatın metodoloji əsası, dissertasiyanın elmi yeniliyi və əməli əhəmiyyəti haqqında məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Kitabi-Dədə Qorqud" eposu erkən orta əsrlərdə Azərbaycanın tarixi coğrafiyası və təsərrüfat həyatı haqqında"** adlanır. Dissertasiyanın "Erkən orta əsrlər Azərbaycanının tarixi coğrafiyasının **"Kitabi-Dədə Qorqud" eposunda əksi"** adlı birinci fəslinin birinci yarımbaşlığında oğuzların erkən orta əsrlərdə Azərbaycanın tarixi ərazisində oynadıqları son dərəcə mühüm rolu tarixi hadisə və proseslərin, qiymətli faktların köməkliyi ilə dinamik bir şəkildə öz əksini tapmışdır. Bu fəsildə oğuz türklərinin tarixi coğrafiyası, ictimai-siyasi quruluşu, islamın ilk yüzillyində, yəni VII əsrdə Qafqaz mühitində – Dərbənd keçidi ilə Ermənistan yaylası arasındakı torpaqlardakı həyat tərzi həm "Kitabi-Dədə Qorqud" dastanın öz məlumtaları, həm də bu sahəni tədqiq edən görkəmli tədqiqatçıların əsərlərinin dövriyyəyə cəlb edilərək öyrənilməsi və təhlili əsasında araşdırılmışdır.

Tarixşünaslığımızda əsaslı dönüş yaradan həqiqətlərə istinad edilərək bu fəsildə bir daha belə bir fikir əsaslandırılmışdır ki, başqa türk soyları kimi, oğuz türkləri də Azərbaycanın və Şərqi Anadolunun tarixi coğrafi hüdudlarında hələ səlcuq axınlarından çox-çox əvvəl məskunlaşmışdılar. Görkəmli tədqiqatçı Y.Mahmudov haqlı olaraq elmdə belə bir fikir əsaslandırmışdır ki, müxtəlif türk etnoslarının qaynayıb-qarışaraq ayrıca və vahid bir xalqa çevrilməsi prosesinin mühüm fazalarından biri, yəni Azərbaycan xalqının təşəkkülü prosesi də məhz bu regionda – Qafqazda baş vermişdir. Azərbaycanda, habelə Şərqi Anadolu, Dəclə və Fəratın yuxarılarında, ilk dəfə olaraq, çoxsaylı və böyük türk toplumlarının hamısının bir-birini asanlıqla başa düşdüyü ümumtürk danışıq dili formalaşmış, türkün min illər boyunca yaratdığı və yaşatdığı ayrı-ayrı xalq ədəbiyyatı nümunələrinin "Kitabi-Dədə Qorqud" boylarının vahid dastan halında təşəkkülü prosesi də elə bu ərazidə başa çatmışdır. Dissertasiyanın birinci fəslinin birinci

yarımbaşlığı bu tarixi həqiqətlərə bir daha yenidən işıq salmaqla yanaşı, bir daha sübut edir ki, "Kitabi-Dədə Qorqud"da cərəyan edən hadisələr Azərbaycanın tarixi-coğrafi torpaqlarında cərəyan edir. Belə ki, bu fəsildə konkret tarixi faktlarla Uzun Həsənin böyük babası – Ağqoyunlu dövlətinin banisi Qara Yuluk Osman bəyin nəsli şəcərəsi araşdırılır, onun 54-cü babada Oğuz xaqana gedib çıxması bir daha gündəmə gətirilir. Oğuz xaqanın başçılıq etdiyi dövlətin ərazisində doğma Azərbaycanımızın tarixi coğrafi məkanlarının xatırlanması və nəhayət onun Göyçə gölü tərəflərdə vəfat etməsi, yaxud Bayandur xaqanın "Qarabağ qışlağı" və "Göyçə dənizi" yaylaqlarına gedərək qurultay çağırması və bu kimi çoxsaylı faktlar bir daha göstərir ki, "Kitabi-Dədə Qorqud" eposundakı hadisələri və bu hadisələrin inkişaf dinamikasını Azərbaycanın tarixi-coğrafiyasından kənarda təsvir etmək qeyri-mümkündür.

Dissertasiyanın sözü gedən hissəsində V.Bartold, Y.Mahmudov, İ.Dyakonov kimi sanballı alimlərin mövzu ilə bağlı tədqiqatları, gəldikləri qənaət və nəticələrə münasibət fonunda yeni elmi fikirlərin söylənilməsi, həmçinin erkən orta əsrlərdən başlamış ta XV əsrin sonlarına qədərki, minillik tarixi hadisələrin əfsanəvi-mifoloji epizodlarla bəzənən bədii lövhələrə müəllifin münasibəti də geniş şəkildə işıqlandırılmışdır. Bəlli olur ki, "Kitabi-Dədə Qorqud"un qəhrəmanlarının vətəni Azərbaycanın tarixi-coğrafi torpaqları, başlıca olaraq, Kür-Araz ovalığı, Bərdə-Gəncə-Gürcüstan ərazisinə kimi, şimal-şərqdə Dərbənd, şimal-qərbdə Göyçə ətrafı, qərbdə Qara dərə ağzı, Pasenə qədər olan ərazilərdir. Bu yarımbaşlıqda "Aşquz", "İşquz" adlarının "Kitabi-Dədə Qorqud"dakı "iç üz" və "Daş üz"lə səsləşməsi, "Duxar", yaxud "Toxar" vilayətinin Qafqaz Albaniyası ilə İberiya arasında –Göycə gölü ətrafında yerləşməsi, bu ərazinin əvvəllər "Kəngərli", sonralar isə "Peçeneqlər ölkəsi" adlandırılması və bir çox mühüm faktlar çoxsaylı tədqiqat əsərlərinin dövriyyəyə cəlb edilərək tədqiq olunması əsasında geniş elmi izahını tapmışdır.

On iki dastandan (boydan) ibarət olan epos qəhrəmanlarının fəaliyyətinin Azərbaycanın tarixi torpaqlarında yüksələn dinamik inkişaf xətti ilə tədqiq olunması bu yarımbaşlıqda oğuz tayfalarının bütün qəbilədaxili və qəbilələrarası çoxşaxəli münasibətlərinin əsil mənzərəsini

canlandırır ki, bu da "Kitabi-Dədə Qorqud"un əsrlər boyunca xalq yaradıcılığının məhsulu olması haqqında deyilən fikirləri bir daha təsdiq edir.

Dissertasiyanın I fəslinin I yarımbaşlığında Avarların VI əsrdə Azərbaycan ərazisinə basqınlarının VI əsrin II yarısında Şimali Qafqazın etno-siyasi xəritəsində hunların yürüşündən sonra baş vermiş ikinci mühüm hadisə olması–Qafqazyanı düzlərdə yaşayan hun birliklərinə son qoyması və bütün bunların Şimali Monqolustanda bəhs edilən dövrdə cərəyan edən hadisələrlə bağlılığı öz əksini tapmışdır. Məlumdur ki, bəhs edilən dövrdə Şimali Monqolustanda Türk xaqanlığının yaranması ilə əlaqədar qərbə yeni köçəri axınının-avar tayfalarının yönəlməsi hadisəsi baş vermişdir. "Kitabi-Dədə Qorqud" boylarının baş qəhrəmanı Salur Qazanın qardaşı Qaragünənin başına gələn hadisələr fonunda tarixi-coğrafi yerlərimizin tez-tez xatırlanması bir daha sübut edir ki, türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş tayfa hesab edənlər nə qədər səhv və qərəzli düşünürlər.

Eposun demək olar ki, bütün boylarında hadisələrin Azərbaycanın qədim Arran-Albaniya ərazisində baş verməsini "Salur Qazanın evinin yağmalanması" boyundakı hadisələr də sübut edir. Bundan başqa oğuz ellərinin üçü başlıca qərərgahının yerini, bunların hüdudlarını müəyyənləşdirmək üçün dastan mətnindəki bəzi toponim və hidronimlər xüsusilə diqqəti cəlb edir. Belə ki, Gəncə kimi konkret coğrafi mövqeyi olan şəhərlərin oriyentasiya kimi qəbul edib Dərbənd, Qara Dərvənd, Qapılı Dərvənd, Qapılı Qara Dərvənd adlanan qalaların yerini; Kür və Araz çayını oriyentasiya kimi götürüb "axıntılı körklü su" anlayışını, eləcə də Aladağ, Qaradağ toponimlərinin yerini və daha başqa toponimlərin mətndəki coğrafiyasının elmi tədqiqi də məhz dissertasiyanın bu yarımbaşlığında tədqiq edilir. Diqqət eposun "Baybörənin oğlu Bamsı Böyrək" adlanan III boyuna yönəldilərək Qara Dərvəndin indiki Goranboy rayonunda yerləşən eyni adlı yaşayış məskəni olması, e.ə. VII əsrin II yarısında Qabaq Asiyada görünməyə başlayan skiflərin aşquz və işquz adları ilə "Kitabi-Dədə Qorqud"dakı Daş Oğuz və İç Oğuz adları ilə səsləşməsi haqqında müqayisələrin aparılması, İç Oğuz və Daş Oğuz coğrafi ərazilərinin Azərbaycanın tarixi sərhədləri hüdudlarında müəyyənləşdirilməsinə dair elmi fikirlərin

söylənilməsi də dissertasiyanın birinci fəslinin birinci yarımbaşlığının çoxsaylı maraqlı cəhətlərindən biri kimi diqqəti cəlb edir.

Dissertasiyanın sözü gedən hissəsində "Kitabi-Dədə Qorqud"da təsvir edilən hadisələrin coğrafi dairəsi  xüsusi olaraq tərtib edilən sxemdə öz əksini tapmışdır. Belə ki, eposda təsvir edilən coğrafi məkan adları Azərbaycan ərazisinə daxil olan və onun sərhədlərindən kənarda yerləşən yerlər kimi iki qrupda təsnifatlandırılmış və məntiqi mühakimə əsasında məhz Azərbaycanın təsvir olunan Oğuz qəhramanlarının həqiqi vətəni olması fikri əsaslandırlmışdır. Ümumiyyətlə dissertasiyanın sözü gedən hissəsində bütün boyların elmi cəhətdən araşdırlması nəticəsində bəlli olur ki, müqəddimədə 2-ci, 3-cü, 9-cu və 10-cu boylarda hadisələr bilavasitə Azərbaycan ərazisində, yerli şəraitdə cərəyan edir. Oğuz xanın təşkil etdiyi eldə 90 min yurd birləşdiyinə görə ellər "On doqquz Oğuz" adlanır. Oğuz dünyanı tabe etmək üçün şərqdən qərbə yürüşə çıxır. Oğuz xanın dünyanı tutmaq üçün vətənindən çıxdığı istiqamət, bu yolda gəldiyi ölkələr, vətənə qayıtdığı istiqamət və keçib getdiyi ölkələrin coğrafiyası tam realdır.

Dissertasiyanın I fəslinin II yarımbaşlığı "**Kitabi-Dədə Qorqud" eposu erkən orta əsrlərdə Azərbaycan xalqının təsərrüfat həyatı haqqında"** adlanır. Bu yarımbaşlıqda oğuzların geniş və çox sahəli təsərrüfat həyatı ilə – bağçılıq, üzümçülük, şərabçılıq, gön-dəri, sərraclıq, metalişləmə və s. sahələrlə çox uğurla məşğul olmaları öz əksini tapmışdır. Məlum olduğu kimi əkinçilik və maldarlıq Azərbaycan əhalisinin ən qədim məşğuliyyəti olmuşdur. Dissertasiyada bəhs olunan dövrdə Azərbaycanda əhalinin əkinçilik, bağçılıq, bostançılıq və maldarlıqla məşğul olması haqqında ilk mənbələrdə məlumata rast gəlmək mümkündür. Belə ki, oğuzlar təkcə ov əyləncələri günlərində deyil, ömürlük təbiət qoynunda olurlar, sulu-çəmənli yerlərdə qoyun sürüləri bəsləyirlər, at ilxıları, sağmal və qoşqu heyvanları sayxlayırlar. Oğuzlarda at əti yeyildiyi dastan mətnindən görünmür; at südündən qımız düzəldib içmək də oğuzlarda dəb deyil. Dəvə südündən istifadə edildiyi də bilinmir.  Bəzi türkdilli  xalqlarda geniş yayılan xəz üçün tülkü, qurd, ayı ovu oğuzları maraqlandırırdı. Onlar dəri və göndən geyim və daha başqa məqsədlər üçün istifadə edirlər. Oğuzlar bəslədikləri saysız-hesabsız sürülərlə, ilxı və naxırlarla, ovuna çıxdıqları

ceyranlar, marallar, quşlarla, ov zamanı üzləşdikləri aslanlarla, qartallarla birlikdə ana təbiətin qoynunda yaşayırlar. Oğuzların təbiətdən kənar oxşatması yoxdur. Məhz bu duyuma görə oğuz qəzəblənəndə özünü dolmuş buluda, düşmən üstünə qılınc çəkəndə özünü göylərdə çaxan şimşəyə, ildırıma oxşadır. Törədən ata-ana cins qoyuna, ayğıra-madyana, buğa və inəyə, nərə və mayaya, törəyənlər cins quzuya, buzova, quluna, köşəyə bənzədilir. İnsanın ülviyyəti və ucalığı dağların hündürlüyünə, ağacların yüksəkliyinə, insanın paklığı axar suların aralığına oxşadılır; çiçək zərifliyinə və gözəlliyinə hörmətlə qızlara Banu Çiçək adı qoyulur.

Eposun mətnindən aydın olur ki, dəvəçilik, atçılıq, qoyunçuluq və bununla əlaqədar sənətkarlıq sahələri, ipəkçilik, xüsusilə toxuculuq yüksək inkişaf etmişdi: Bayandur xan Oğuz bəylərinin hərbi məclislərini keçirəndə "min yerdə ipək-xalça döşətdirdi".

Məlum olduğu kimi, Azərbaycan xalqının təsərrüfat həyatında qədim dövrlərdən üzü bəri maldarlıqla və qoyunçuluqla bərabər, atçılıq da xüsusi yer tutmuşdur. "Kitabi-Dədə Qorqud"da atçılıq təsərrüfatı haqqında kifayət qədər dəyərli məlumatlara rast gəlinir. Eposun mətnindən aydın olur ki, xalqımızın etnogenezində mühüm rol oynamış oğuzlarda at əvəzedilməz əhəmiyyətə malik olmuşdur. Belə ki, xanlar-xanı Bayandur xan və Qazan xan müxtəlif məqsədli mərasimlərdə "qoyundan qoç, dəvədən buğra, atdan ayğır" qırdırır. Orduda isə atı heç bir heyvan əvəz edə bilməz. Bu iki hal, yəni atdan qida və minik vasitəsi kimi istifadə onun həm çoxaldılmasına, həm də cinsləşdirilməsinə diqqəti artırmışdır. Ümumiyyətlə, boylarda ətlik at cinsindən çox minik atlarına və onların cinslərinə daha çox fikir verildiyi aydınlaşır. Bu baxımdan ərəb atı, qara ayğır, boz ayğır, bədöy at, şahbaz at, Qazılıq at kimi at adlarına rast gəlirik.

Oğuz elində orta əsrlərdə çoxlu miqdarda xırdabuynuzlu heyvan sürüləri, mal-qara, at ilxısı, dəvə və s. heyvanlar saxlanılırdı. İbn Fəqih göstərir ki, Azərbaycanda atlar qısa boylu, dəvələr isə kiçik olub türk dəvələrinə bənzəyir, eyni zamanda burada qoyun-quzu, öküz və s. heyvanlar boldur.

Eposun mətnindən aydın olur ki, oğuzlarda başqa təsərrüfat sahələri də inkişaf etmişdir. Əzrayıldan aman istəyən Dəli Domrul söyləyir ki, o

boyların qara salxımlı üzümü olur, o üzümü sıxırlar al şərabı olur. Bu kimi fikirlərin səslənməsi təbii ki, adı çəkilən sahənin də inkişafından xəbər verir.

Zəngin, özünəməxsus mədəniyyət yaratmış oğuzların müxtəlif ölkələrlə geniş əlaqələr saxlayır, özlərinin təsərrüfat mədəniyyətlərini qonşu xalqlar və tayfalar arasında yayır, eyni zamanda onlardan da çox şeylər mənimsəyirdilər.

Dissertasiyanın II fəsli **"Kitabi-Dədə Qorqud" eposu erkən orta əsrlərdə Azərbaycanın ictimai-siyasi quruluşu haqqında"** adlanır. İki yarımbaşlıqdan ibarət olan bu fəsildə oğuzların bəhs olunan dövrlərdə ictimai-siyasi quruluşu, dövlətçilik ənənələri, yüksək təşkilatlanma və idarəetmə mədəniyyətləri öz əksini tapmışdır. Belə ki, "**Kitabi-Dədə Qorqud" dastanlarında oğuzların siyasi hakimiyyəti məsələləri və onun digər türk xalqlarının quruluşu ilə paralelləri"** adlanan I yarımbaşlıqda dastanın boylarının geniş təhlili əsasında oğuz cəmiyyətinin siyasi hakimiyyət prinsipləri çox geniş şəkildə araşdırılmışdır.

Dastanın Bayandur xanın xatırlandığı demək olar ki, bütün boylarında onun ictimai statusu hökmdar kimi təqdim edilmiş və o oğuz bəylərinin süzereni hesab edilməklə feodal iyerarxiyasının zirvəsində duran şəxs kimi göstərilmişdir. Bayandur xanın oğuzların hökmdarı olmasına eyham "Bəkil oğlu İmran boyu"nda daha qabarıq şəkildə göstərilmişdir. Dastan boylarında əks olunmuş hadisələrin təhlili cəmiyyətdə Qazanın da hökmdara layiq mövqe tutmasını və bəzən onun nüfuzunun xanlar xanı Bayandur xanın nüfuzunu kölgədə qoymasını göstərir. Beləliklə dastanda öz əksini tapmış və yaranma köklərinin hərbi-demokratiya dövrünə gedib çıxdığı bu halı tədqiqatçı S.Əliyarlı "ikili hakimiyyət" (ciftə krallıq) prinsipinə aid edir. Deməli, dastanda ali hökmdar və onun o qədər də səlahiyyəti az olmayan müavini obrazı heç də təsadüfi olmayıb, qədim türk dövlətçiliyi ənənələrindən qaynaqlanan bir hal olması bir daha aydınlaşır. Məhz eposda öz əksini tapmış "iki hakimiyyətlilik" prinsipinə mövcud mənbələr və ümumtürk dövlətçiliyi baxımından nəzər salması "Kitabi-Dədə Qorqud"”un daha dərin qatlarını üzə çıxarmış olur.

İkili hakimiyyət haqqında nisbətən dolğun məlumat verən ərəb tarixçiləri bunun nə vaxt və hansı şəraitdə meydana gəlməsini göstərmişlər. Bu haqda məlumat verən əl-Məsudi yazır: "Belə bir qaydanın qədim və ya yeni olmasını mən bilmirəm, fəqət bir halda ki, xaqan vəzifəsi onlardakı əyan ailələrindən birinin üzvlərinin əlindədir, düşünürəm ki, hakimiyyət çoxdan onların əlindədir". Bu məlumatlardan nəticə çıxaran Zaxoder ikili hakimiyyətin meydana gəlməsini müəyyən üsullarla "şəxsin ali hökmdar kimi ibtidai demokratiya tərəfindən təyin olunduğu və aradan götürüldüyü dövrə" aid etmişdir. Eposdakı boyların diqqətlə araşdırılması əsasında belə bir nəticə çıxarmaq olar ki, xaqan dövlətin hərbi-siyasi həyatında heç də kənarda qalan passiv monarx rolunu oynamamışdır. "Kitabi-Dədə Qorqud" dastanlarında təsvir edilmiş ikili hakimiyyət sisteminin iki tayfanın və ya nəsli ittifaqın nəticəsi kimi meydana çıxması probleminə aydınlıq gətirməsi təbii ki, böyük əhəmiyyət kəsb edir.

Dissertasiyanın II fəslinin II yarımbaşlığı **"Kitabi-Dədə Qorqud" eposunda oğuz cəmiyyətinin ictimai münasibətləri"** adlanır. Bu yarımbaşlıqda oğuzların cəmiyyətində namus mənəvi aidiyyət kimi bütün maddi-fiziki varlıqdan yüksəkdədir. Təkcə bunu demək kifayətdir ki, Oğuzda həyat yoldaşına – ərə də, arvada da halal deyirlər. Oğuzun namus əsası halallığıdır. Bunu oğuzun düşməni də bilir. Buna görə də Qazan xanın evini, mal-mülkünü talayan, ailəsinin qul-qaravaşını əsir edən kafirlərin məliki ən sərt qisas yolunu seçir: o, öz məclisində Qazan xanın qadınına şərab paylatmaq istəyir. Məlumdur ki, əgər kafirin məqsədi sadəcə keyf-şəhvət olsa idi, o daha cavan qız-gəlinlərlə qane olardı. Düşmən Oğuzun ən kövrək hissinə bələddir və ən qatı qisas variantını seçir. Bu namusun Oğuz üçün nə demək olduğunu Qazanın oğlu Uruz bir daha nümayiş etdirir. Anasını aşkarlamaq üçün onun ətindən düşmənin qara qovurma hazırlamaq xəbərini eşidəndə Uruz Burla xatuna deyir: "Bu nə sözdür? Saqın, xanım ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy məni, xanım ana, çəngələ sancsınlar! Qoy ətimdən çəksinlər, qara qovurma edib, qırx bəy-qızının önünə aparsınlar. Təki murdar dinli kafirin döşəyinə düşməyəsən, atam Qazanın namusunu sındırmayasan, saqın". Göründüyü kimi bu sözlər

Oğuzun namus-şərəf bayrağıdır. Ata-ana namusu belə gözlənən yerdə təbii ki, Vətən, xalq qeyrəti də ideal qorunar.

Eposun məlumatlarından aydın olur ki, Qazan sarayda ümumi dövlət məsələlərini Qilbaş ilə birlikdə həll edir. İkinci boyda oğuz dövlətçiliyinin bir maraqlı detalı da var: mərasim səciyyəli yarışlarda mahalın hakimi qalibi öz vəzifəsi ilə mükafatlandırır.

Eposun azərbaycanlı tədqiqatçılarının fikrincə, türkün qədim qaydasıdır ki, oğlunu xan ovladı olduğu üçün yox, cəmiyyət əhatəsindəki yerinə görə qiymətləndirərlər.

Eposdakı igidlikləri tərifə layiq olan qadınlar da qəhramanlıqda kişilərdən geri qalmırlar. Boylarda qadın-ananın, arvadın, bacının kişilərlə bərabər ailəsinin şərəf və ləyaqətini, öz qəbiləsinin, torpağının müstəqilliyini müdafiə etməsi də xüsusi bir anlamla vurğulanmışdır.

Eposda bəzən xalq da xatırlanır. Görünür burada təsərrüfatla, sənətkarlıqla məşğul olan camaat nəzərdə tutulur. Təəssüf ki, eposda bu təbəqənin hüquqi vəziyyəti, onun vergiləri, daşıdıqları vəzifə və mükəlləfiyyətləri barədə ətraflı məlumat ehtiva olunmur.

O dövrün ictimai quruluşunun başa düşülməsi üçün son dərəcə mühüm məqam eposda kölələrin, kölə qadınların dəfələrlə xatırladılmasıdır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, burada köləlik Avropa ölkələrinə xas olan xarakterdə olmamışdır. O bütün Şərqdə olduğu kimi ev köləliyi formasında idi.

Eposda dövlət və cəmiyyətin həyatında mühüm rol oynayan divan haqqında birbaşa məlumat verilməsə də, boyların bəzi məlumatlarına görə hesab etmək olar ki, divan gündəlik həyatda yaranan bütün mühüm məsələləri – yürüşlər edilməsi, gənclərə ərənlik göstərdiklərinə görə ad verilməsi, onlara sərvət, torpaq və taxt-tac verilməsi kimi işlərin həyata keçirilməsi məqsədilə çağırılardı.

Dissertasiyanın III fəsli **"Kitabi-Dədə Qorqud" eposu Azərbaycan xalqının xarici müdaxiləçilərə qarşı mübarizə tarixini öyrənmək üçün mənbə kimi"** adlanır. Bu fəsildə, adından da göründüyü kimi, xalqımızın və ümumiyyətlə, türkdilli xalqların öz torpağı, vətəni uğrunda zaman-zaman apardıqları şanlı mübarizə tarixi çox geniş bir şəkildə öz əksini tapmışdır. Dissertasiyanın bu fəsli də iki yarımbaşlıqdan ibarətdir. **"Kitabi-Dədə Qorqud" eposunda tarixilik məsələləri və Azərbaycan**

**xalqının gürcü-qıpçaq təcavüzünə qarşı mübarizəsinin əksi"** adlanan birinci yarımbaşlıqda, adından da göründüyü kimi, xalqımızın gürcü-qıpçaq təcavüzünə qarşı mübarizəsi öz əksini tapmışdır. Bütün epik məziyyətləri ilə yanaşı, həm də Azərbaycan tarixinin bütöv bir dövrünün tarix salnaməsi hesab olunan "Kitabi-Dədə Qorqud" eposu Azərbaycan türklərinin qonşuları ilə əlaqəsinin, xüsusilə, torpaqlarımıza göz dikən konkret düşmənlərin müəyyən edilməsi və eposda verilən informasiyanın sinxron yazılı mənbələrin məlumatları ilə tutuşdurulması baxımından mühüm əhəmiyyət kəsb edir. Eposun ilk tədqiqatçılarından biri olan Bartold oğuzların müharibə apardıqları kafirlərin gürcülər və bizanslılar olduğunu göstərmişdir. Müəllifin gəldiyi qənaətin düzgünlüyünü eposun boylarının özü də sübut edir. Belə ki, "Qanlı Qoca oğlu Qanturalı" adlanan 6-cı boyda işlənən "Trabzon təkuru" ifadəsi Bizansa, "Salur Qazanın evinin yağmalandığı boy" adlanan II boyda isə "Sasi dinli Gürcüstan" ifadəsi isə gürcülərə işarədir. Qıpçaqlara gəlincə isə V.Jirmunskinin qənaətinə görə bu hələ oğuzların Mərkəzi Asiyada yaşadıqları zaman onlarla qıpçaqlar arasında baş verən toqquşmaların əksi hesab edilməlidir. Lakin eposda xristian gürcülərinə şamil edilən "Sasi dinli" ifadəsinin qıpçaqlara da aid edilməsi qıpçaqların xristian kimi vurğulanması Jirmunskinin mülahizəsinin inandırıcılığını azaldır. Çünki oğuzların Mərkəzi Asiyada qarşılaşdıqları qıpçaqların xristian olmaları istisna təşkil edir.

Eposda əks edilmiş oğuz-qıpçaq qarşıdurmasının köklərinin Mərkəzi Asiyaya gedib çıxması da inandırıcı görünmür. Oğuzların qıpçaqlarla qarşılaşdığı coğrafi məkanın Kiçik Asiya, Gürcüstan olması və bu zaman Mərkəzi Asiya coğrafi mühitini xatırladan bir coğrafi terminin belə xatırlanmaması deyilənlərə əyani sübutdur. Dastanda qıpçaqların oğuzların mübarizə apardıqları başlıca qüvvə kimi təsvir edilmələri dövrün sinxron mənbələrini və ümumiyyətlə qıpçaq-Azərbaycan əlaqələrini bir daha nəzərdən keçirmək zərurəti yaradır. Xalqın ümumi düşmənə qarşı birləşmək ideyalarının zəif bəndi olan düşmənlərin oğuzları, daha geniş mənada isə türkləri bir-birinə qarşı qoymaq siyasəti dastanda öz əksini daha parlaq şəkildə tapmışdır.

Bütün bunlar, Azərbaycan torpaqlarına göz dikən düşmənlərin öz məqsədlərinə çatmaq üçün müxtəlif çirkin vasitələrdən istifadə

etdiklərini göstərir. Qohum xalqları, hətta eyni xalqın müxtəlif fərdlərini qarşı-qarşıya qoymaq və onları Bizans və gürcü feodalları tərəfindən daha geniş şəkildə tətbiq olunmuşdur. Bütün bu və digər məsələlər III fəslin II yarımbaşlığında öz əksini daha geniş şəkildə tapmışdır. Oğuzların Kiçik Asiyada Bizans imperiyasının son qəlpələri ilə apardıqları mübarizə və monqol dövrünün başa çatmasından sonra yenidən bölgədə hegemon qüvvəyə çevrilməsi öz əksini eposda aydın surətdə tapmışdır.

III fəslin I yarımbaşlığında oğuz-qıpçaq münasibətlərinin eposda əksi məsələsinə toxunarkən, haqqında danışılan məsələlərin XI-XII əsrlərdə Cənubi Qafqazda baş verən hadisələrin əksi olduğu qeyd edilmişdir. Oğuzların Kiçik Asiya yunan mülkləri ilə münasibətləri və regionda siyasi ağalıq uğrunda mübarizəyə başlamaları dövrü XIV əsrin ortalarında – Hülakülər dövlətinin zəiflədiyi dövrə aid edilir. Göründüyü kimi, əgər boyları əks etdirdikləri tarixi hadisələrə görə müqayisə etsək, onda bəzi boylarla digərləri arasında ən azı 200 illik zaman fərqi nəzərə çarpmış olur. Buna görə tədqiqatçılar iki boyun "Duxa Qoca oğlu Dəli Domrul boyu"nun və "Qanlı Qoca oğlu Qanturalı boyu"nun dastana sonradan əlavə edildiyini göstərirlər.

Oğuzların Bizans istiqamətində fəal xarici siyasət həyata keçirmələri "Kitabi-Dədə Qorqud" eposu ilə yanaşı, dövrün mənbələrinin verdiyi məlumatlarla da təsdiq edilir. Dastanın "Qanlı Qoca oğlu Qanturalı" boyunda Oğuz-Bizans, daha dəqiq desək, Oğuz-Trabzon əlaqələri nisbətən tarixi reallığa daha yaxın şəkildə öz əksini tapmışdır.

Dastanda Oğuz-Ağqoyunluların Bizans imperiyası və onun qolları olan Kiçik Asiya yunan dövlətləri ilə saxladıqları çoxtərəfli münasibətlərin bir sıra mühüm aspektlərinə toxunulmuşdur. Belə ki, dastandakı məlumatların təhlili göstrəir ki, Oğuz-Bizans əlaqələrini iki konteksdə-siyasi rəqabət və müttəfiqlik əlaqələri kontekstində nəzərdən keçirmək daha məqsədəuyğundur. Oğuz-Trabzon əlaqələrindən bəhs edən VI boyda iki mühüm məqam – oğuzların Trabzonla qohumluq əlaqələri qurmaları və digər tərəfdən isə real tarixi şəxsiyyət olan Turəli bəyin adının bu boyda qorunub saxlanılması da böyük maraq kəsb edir.

Dastanda məhz Turəli bəyin adının çəkilməsi, onun epik qəhrəmanlar səviyyəsində təqdim edilməsinin mühüm siyasi ideoloji

əsası olmuşdur. Çünki, Ağqoyunluların avtonom bir qüvvə kimi regionun siyasi səhnəsində görünməsi məhz onların dövrünə təsadüf edir. Beləliklə, dastanda əksini tapmış tarixi reallıqlar Oğuz-Bizans münasibətlərinin siyasi rəqabət və sonralar isə müttəfiqlik zəminində inkişaf etməsini bir daha sübut edir.

"Kitabi-Dədə Qorqud" eposu təkcə Azərbaycan xalqının mənəvi-əxlaqi, ictimai-siyasi, iqtisadi-sosial baxışlarını, həyat tərzini, dövlətçilik təfəkkürünü deyili, eyni vaxtda milli maraqlarını və öz milli varlığını qoruyub saxlamaq üçün regiondakı qonşuları ilə zaman-zaman yürütdüyü siyasi münasibətlər sistemini də parlaq əks etdirən əvəzedilməz bir mənbədir.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurularaq, gələcək perspektivlər müəyyənləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində əksini tapmışdır.**


**1.** "Kitabi-Dədə Qorqud" eposu və Azərbaycanın erkən orta əsrlər tarixi. "Dirçəliş XXI əsr" jurnalı, Bakı, 2007. № 114-115. s.398-407.

**2.** "Kitabi-Dədə Qorqud" eposunda oğuz elinin coğrafiyası. "Tarix və onun problemləri" jurnalı. Bakı 2007. №3. s.115-118

**3.** "Kitabi-Dədə Qorqud" eposunun tədqiqi tarixindən. "Dirçəliş XXI əsr" jurnalı, Bakı, 2008. № 124-125. s.384-398.

**4.** "Kitabi-Dədə Qorqud" eposuna tarixi bir baxış. "Bakı Universitetinin xəbərləri" jurnalı, Bakı, 2008. №1. s.156-164.

**5.** "Kitabi-Dədə Qorqud" eposunda Oğuz türklərinin məskunlaşdığı ərazilər. "Qarapapaqlar" jurnalı, Marneuli, 2008. №9 (17). s.18-24.

**6.** Kitab-ı Dede Korkut Destanı ve Oğuz Türklerinin İctimai-Siyasal Kuruluşu Hakkında. "Karadeniz araştırmaları" dergisi, Ankara, Cilt:6, sayı 22, Yaz-2009. s.147-157.

**7.** "Kitabi-Dədə Qorqud" boylarında Oğuz-Bizans əlaqələrinin əksi. "Tarix və onun problemləri" jurnalı. (Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış) Bakı 2013. №2. s.395-400.

## РЕЗЮМЕ

Диссертационная работа посвящена изучению "Китаби Деде - Коркута", как источника изучения древней и ранней средневековой истории Азербайджана. Так как, "Китаби Деде - Коркут" является незаменимым и бесценным источником для исследования и изучения древней, а также ранне средневековой истории огузов и особенно Азербайджанских тюрков.

События происходящие в эпосе "Китаби Деде-Коркут" соответствуют реальными событиями происходящиеся в Азербайджане и в исторических землях нашей родины. Так как, герои эпоса в основном те люди, которые жили на территории Миль–Мугана, Кюра-Араксинском низменности, от Дербента, Алгунтахта от Аладагских ейлаках до территории простирающиеся во всех Южно Азербайджанских землях.

"Китаби Деде-Коркут" еще раз подтверждает того, что наш город обладал насышенной оседлой культурой, занимался во всеми отраслями хозяйства: земледелием, ткачеством, шёлкоделием и т.д.

Во введении обоснована актуальность темы, анализированы историографические и историоведческие базы исследования, определены цель и задачи, методологические основы, научная новизна, теоретическая и практическая значимость работы.

Первая глава-" Эпос "Китаби Деде-Коркута" о исторической географии и хозяйственной жизни ранне средневекового Азербайджана" состоит из двух параграфов.

В первом параграфе речь идёт о географии, где жили огузские тюрки. Во втором параграфе речь идёт о хозяйственном деятельности огузских и особенно Азербайджанских тюрков.

Вторая глава - " Эпос "Китаби Деде - Коркута о общественно – политической структуре ранне средневекового Азербайджана.

В первом параграфе второй главы речь идёт о вопросах политической власти, а также ведутся паралели с другими тюрскими народами. Во втором параграфе речь идёт об общественных отношениях огузских обществах.

Третья глава состоит из двух параграфов. В первом параграфе речь идёт о борьбе Азербайджанского народа против грузино – кыпчакских нашествий.

Во второй главе речь идёт об отражении огузо – кыпчакских отношений в эпосе, а также важные общественно – политические процессы, происходящие на Южном Кавказе.

В заключении обобщаются результаты исследования, подводятся итоги диссертационной работы.

## SUMMARY

The thesis is devoted to the study of " Dede Korkut " as the source of the study of ancient and early medieval history of Azerbaijan. Because, " Dede Korkut " is an essential and invaluable resource for research and study of ancient and early medieval history and especially Oguz Azerbaijani Turks .

Events taking place in the epic " Dede Korkut " match to the real events taking place in Azerbaijan and the historical land of our country. Since the epic heroes are mostly people who have lived in the territory of the Mil-Mugan, Kura-Araz lowland, Derbent, from Alguntahta to Alagayskih eylagov the territory spreading over all of South Azerbaijani lands.

" Dede Korkut " once again confirms the fact that our city has a rich culture of sedentary , engaged in all sectors of the economy: agriculture, weaving, sericulture , etc.

During the introduction justify of topics analyzed historiographical base of research , the purpose and objectives , methodological foundations , scientific innovation , theory and a practical significance of the work .

The first chapter - " Epic Dede Korkut " is about the historical geography and industrial life of the early medieval Azerbaijan. " Consists of two sections

In the first paragraph it talks about geography , where they lived Oguz Turks .

The second section is about economic activity and especially Oguz Azerbaijani Turks .

The second chapter - " Epic Dede Korkut " about the sociopolitical structure of the early medieval of Azerbaijan.

In the first section of the second chapter it comes to matters of political power , and lead a parallel with other Turkic peoples.

In the second section we can learn about public relations of Oguzs society .

The third chapter consists of two sections. The first paragraph it is about the struggle of the people against Azerbaijan, Georgian- Kipchak irruption.

In the second section, described the Oguz - Kipchak relations , as well as important social and political processes in the South Caucasus.

In conclusion summarizes the results of the study and total all the pluses the thesis.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**НУРЛАН НИЗАМИ оглы АББАСОВ**

# "ЭПОС "КИТАБИ-ДЕДЕ КОРКУД" КАК ИСТОЧНИК ДЛЯ ИЗУЧЕНИЯ РАННЕГО СРЕДНЕВЕКОВЬЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

**Специальность: 55 09.01–историография, источниковедение и методы исторических исследований**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени доктора философии по истории**

**Б А К У – 2 0 13**